Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

Bakı-Abşeron Regional
Turizm İdarəsi



**Dövlət Turizm Agentliyinin Bakı-Abşeron Regional Turizm İdarəsi**

**«Küçə sənətçiləri» layihəsində iştirak etmək üçün**

**müsabiqə ELAN edir!**

## Müsabiqədə:

- **İncəsənətin müxtəlif sahələrində istedadı olan 18 yaşına çatmış hər bir şəxs (Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) iştirak edə bilər. Müraciət edən şəxslər şəxsiyyəti təsdiq edən sənədi (əcnəbilər-ümumvətəndaş passportu) təqdim etməlidir;**

- **Müsabiqə günləri müsabiqə başlamazdan əvvəl mediada elan olunur;**

- **Layihədə yalnız müsabiqə mərhələsində uğur qazanmış şəxslər iştirak edə bilər;**

- **Layihə il ərzində 1 dəfə keçirilməklə 12 aylıq periodlara bölünür;**

- **Müsabiqə 2 mərhələli seçim turundan ibarətdir;**

- **Müsabiqənin seçim turunun 1-ci mərhələsində iştirakçıların online olaraq təqdim etdikləri 3 dəqiqəlik video çarxları mütəxəssislər tərəfindən dinlənilir və "müsbət"-"mənfi" rəy verilməklə qiymətləndirilir. "Müsbət" rəy alanlar növbəti 2-ci mərhələyə keçirilir;**

- **Müsabiqənin seçim turunun birinci mərhələsinin nəticələrindən narazı olan iştirakçılar, nəticələrin elan edilməsindən etibarən 3 iş günü ərzində yenidən qiymətləndirmə aparılması üçün müraciət edə bilərlər.**

- **Müsabiqənin 2-ci seçim turunda isə qiymətləndirmə 10 ballıq şkala üzrə aparılır və müvafiq dayanma yerlərinin sayına uyğun olaraq ən yüksək bal toplamış şəxslər qalib hesab olunur;**

- **Münsiflər heyəti peşəkar incəsənət təhsili olan mütəxəssislərdən və sənətçilərdən ibarətdir (minimum 3 nəfər maksimum 5 nəfər);**

**Qeyd: Layihənin iştirakçıları müsabiqənin keçirilmə vaxtları və qaydalarına riayət etməlidir. Əks halda qaydaları pozan iştirakçının müraciəti növbəti dəfə dəyərləndirilmək üzrə siyahıdan çıxarılacaqdır.**

**Telefon: (+99412) 498 12 44**
**Email: baku@tourism.gov.az**

# “Küçə sənətçiləri” layihəsində iştirak qaydaları:

- **Layihənin müsabiqə mərhələsindən uğurla keçmiş namizədlər müvafiq seçilmiş dayanma yerlərində özfəaliyyətinə uyğun olaraq balanslı şəkildə yerləşdirilir. Eyni və ya bir-birinə yaxın ərazilərdə eyni musiqi alətlərində çalan və ya oxşar tərzdə ifa edən sənətçilərin yerləşdirilməsinə yol verilmir.**

- **Hər bir iştirakçı ilə fərdi qaydada 6 ay müddətinə müqavilə bağlanır. Bir iştirakçı ilə il ərzində 2 dəfədən çox müqavilə müddətinin uzadılmasına yol verilmir. Layihədə davam etmək üçün namizəd yenidən müsabiqədə iştirak etməlidir.**

- **Müqavilə bağlanan sənətçilərə müvafiq icazələrin verilməsini təsdiq edən vəsiqə təqdim olunur. Vəsiqə üçün namizəd şəxsiyyəti vəsiqəsinin surətini, 1 ədəd 3x4 ölçülü fotoşəkil və ərizə təqdim etməlidir.**

- **Çıxışlar müvafiq dayanma üçün təyin olunan yerlərdə 3 saatdan artıq olmayaraq və bir yerdə gün ərzində bir sənətçinin çıxış edəcəyi şəkildə təşkil olunur. 1 ay qabaqcadan çıxış cədvəlləri müvafiq olaraq tərtib edilib, sənətçilərə təqdim edilir.**

- **Layihə iştirakçları çıxışlarını səsgücləndirici olmadan həyata keçirir, səsgücləndiricinin istifadəsinə ancaq istisna hallarda (yalnız musiqi alətinin səsi zəif olarsa, əgər dayanma yerinə yaxınlıqda yaşayış evləri yerləşmirsə, bu halda müəyyən səs həddində (75 desibelədək) icazə verilir.**

- **Çıxış edən küçə sənətçiləri:**
  - ✓ **səliqəli geyimdə olmalı;**
  - ✓ **onlar Azərbaycan mədəni irsinin təqdimatçısı kimi daima milli üslub və xarekterlərini qorumalı;**
  - ✓ **mütəmadi özlərini təkmilləşdirməli turistlərin maraq və tələblərinə uyğun çıxışlar hazırlamalı;**
  - ✓ **insanların asudə vaxtına maneə yaratmayacaq şəkildə çıxış etməli;**
  - ✓ **çıxış yerlərini özbaşına və səbəbsiz olaraq məlumat vermədən dəyişdirməməli;**
  - ✓ **çıxışlarını insanların gediş-gəlişinə mane olacaq yerlərdə təşkil etməməlidirlər.**

- **Layihə iştirakçıları ilə ayda 1 dəfədən az olmayaraq görüş keçirilir, çıxış zamanı rastlaşdıqları problemlər dinlənilir və İdarə tərəfindən müvafiq problemin aradan qaldırılması üçün işlər görülür, həmçinin, layihə haqqında İdarəyə və polisə daxil olan şikayətlər barədə sənətçilərə məlumat verilir və barəsində şikayət daxil olan sənətçi haqqında hərtərəfli araşdırma aparılır, nəticədən asılı olaraq tədbir görülür.**

- **Bütün iştirakçıların çıxış repertuarları barədə məlumat qabaqcadan təqdim edilməlidir. Bakı-Abşeron Regional Turizm İdarəsi tərəfindən uyğun sayılmayan çıxışların dəyişdirilməsi barədə aidiyyatı təklif və tövsiyələr olunur.**

- **Layihədə iştirak edən sənətçilərin peşəkar inkişafına dəstək olmaq məqsədilə İdarə tərəfindən mütəxəssis sənətşünaslarla mütəmadi görüşlərin keçirilməsi, sosial təqdimat videçarx çəkilişlərinin təmin edilməsi, mediada gənc istedadların tanıdılması və digər vacib tövsiyə-təkliflərin verilməsi təmin edilir.**